ədalət.- 2021.- 6 noyabr.- S.8.



ALMƏMMƏD ELDAROĞLU

# Başını uca tut, şəhid atası, Övladın tanrının dərgahındadır

## DAĞLAR

*Sarsılırsan keçənlərin,*
*Hey düşdükcə yada, dağlar.*
*Arif olan necə açsın,*
*Sirlərini yada, dağlar.*

*Səbrin varmış, ilmə hördün,*
*Dost aradın, düşmən gördün.*
*Zaman yetdi əmr verdin,*
*Yaraşanı ada, dağlar.*

*Addım-addım irəlilədin,*
*Dağ bilmədin, səd bilmədin.*
*Dəmir yumruq silkələdin,*
*Düşmən getdi bada, dağlar.*

*Qarabağa Zəfər yolun,*
*Şuşa saldı ziya, nurun.*
*Üzü güldü Zəngəzurun,*
*Naxçıvanda Şada, dağlar.*

*Xarı bülbül gülünsərdi,*
*Vətən sirri bir zəfərdi.*
*Alməmmədin nisgil dərdi,*
*Bitdi, döndü şada, dağlar.*

## UĞUR SİZİN UĞUR

İkinci Qarabağ müharibəsində şəhid olmuş baş leytenant Sadıqlı Məmmədhəsən Meydan oğluna.

*Bir insan sevgisi doğma torpağa*
*Həyat sevgisinden əziz olarmış.*
*İrəli getdikcə vətən uğrunda,*
*Müqəddəs sevgiyə o, bərq vurarmış.*

*Dumanlı dağların, uca dağların*
*Uçan qartalıdır məhz vətən oğlu.*
*Şır-şır, qışıltılı axan çayların*
*Coşan naləsidir tərs vətən oğlu.*

*Sənin amalınmış dağlarda döyüş,*
*Günnütdə, Ağbulaq, Qızılqayada.*
*Dərələyəz mahalı Gorusa yürüş,*
*"Uğur sizin uğur" Qaraqayada.*

*Vuruşdun döyüşdə bir od pələngi,*
*Aşdın Füzulidən Şuşaya qədər.*
*Ölüm qorxutmadı gülərüz rəngi,*
*Xilaskar missiyan oldu son əsgər.*

*Bütün zirvələri fəth edən igid,*
*Dağları, daşları silkələdəndir.*
*Özü şəhadətə tələsən şəhid,*
*Vətən fədaisi Məmmədhəsəndir.*

*Vətənin ümidi xilaskarına,*
*İgidin sevgisi torpağınadır.*
*Başını uca tut, şəhid atası,*
*Övladın tanrının dərgahındadır.*

*Dostların qanını yerdə qoymadı,*
*Həyata keçirdi arzularını.*
*Qisasın alındı, zəfər çalındı,*
*Müqəddəs Şuşaya Üçrəngli bayraq*
*Qələbə adıyla uca sancıldı!*

## ANA DİLİM

*Bu dil mənim öz dilimdi, danışdığım,*
*Laylasıyla dil açdığım, Ana dilim.*
*Sevgisinə uşaq ikən alışdığım,*
*Qollarımı ilk açdığım, cana dilim.*

*Deyilişdə müxtəlifcə işlədilər,*
*Yazılışda öz yerində isim, feil.*
*Əlifbada dəyişiklər ola bilər,*
*Dilimizdə dəyişiklər mümkün deyil.*

*Təmizlənib axarlarda, gursularda,*
*Mayası nur köklü dilim, şövkət dilim.*
*Alovlanır kürsülərdə, masalarda,*
*Körpü qurur şeir dilim, sənət dilim.*

*Dalğalansın al bayrağım, gülşən üzlüm,*
*Qoy ucalsın musiqimlə himnim göyə.*
*Bu səfalı torpağımda durna gözlüm,*
*Oğul-qızın haqqı vardır özün öyə.*

*Ölkəm, xalqım, ölməz dilin Azərbaycan,*
*Milliliyim, ləyaqətim, türkcəm mənim.*
*Ayrılmazdır iki cahan, candadır can,*
*Kür-Arazla, mavi Xəzər, ləhcəm mənim,*
*Ozan dilim, Ana dilim!*

## ARAZ

*Sinəmdəki həsrət dağın, sən yaratdın,*
*İniltidən bu ürəyim yara, Araz.*
*Yaralarım sağalsa da izi itməz,*
*De bu dərddən baş götürüm hara, Araz?*

*Sahil boyu gələnlərə, pir olmusan,*
*Suyun sakit, çox lal axır, sir olmusan.*
*Ara-sıra bulaşdıqca kir, olmusan,*
*Bu qatillər saldı səni tora, Araz.*

*Qərib düşdük, sərhədlərdən boylanıram,*
*Ümidlərə bağlanıram, allanıram.*
*Ava dönüb torpağımdan ovlanıram,*
*Sızıltımı, bağlamışam tara, Araz.*

*Ağız büzük dodaqlarda bal qalmadı,*
*Novruz gəldi, yanaqlarda al qalmadı.*
*Təbriz, Dərbənd, İrəvanda xal qalmadı,*
*İnsaf elə çəkmə məni dara, Araz.*

*Danışıqlar baş tutmadı, daha yetər,*
*Qətnamələr təkrarlanır, sözdən betər.*
*Gecikməklə itiririk vaxtı hədər,*
*İşimizi gəl buraxma kora, Araz.*

*Susmaq günah, yanmaq günah, dağılıram,*
*Vətən, deyib ün tapirəm, bağırıram.*
*Oğulları mən döyüşə çağırıram,*
*Gəl izin ver daha keçim zora, Araz.*

*Alməmmədi dindirməyin, söz axtarır,*
*Dərd əlindən alışmağa köz axtarır.*
*Ürək yanır, ağlamağa "döz" axtarır,*
*Al qoynuna apar məni gora, Araz.*

## MƏNİM KÖRPƏ NƏVƏLƏRİM

*Qocalsam da, varlanmışam,*
*Köşəklərim, dəvələrim.*
*Şirin qoğal, kökələrim,*
*Mənim kiçik nəvələrim.*

*Yusuf, Fateh, Ömər -Ömür,*
*Çox gözlədim ötdü ömür.*
*Gəncliyimə sanki dönür,*
*Mənim körpə nəvələrim.*

*Dalaşanda biri küsür,*
*Biri qalxır, biri düşür.*
*Barış oldu tez öpüşür,*
*Mənim körpə nəvələrim.*

*Aslan kimi baxışırlar,*
*Ceyran kimi qaçışırlar.*
*Tərlan kimi uçuşurlar,*
*Mənim körpə nəvələrim.*

*Bax beləcə gündə yüz yol,*
*Deyirlər; -gəl atıb əl -qol.*
*Parka gedək, baba, tez ol,*
*Mənim körpə nəvələrim.*

*Naxçıvan*